# Milli şüurumuzun bütövləşməsində "Mütləqə İnam"ın dərk olunması

Mən Güney Azərbaycanın durumundan çıxış edib bildirmək istəyirəm ki, Asif Atanın Dünyabaxışı bizi bütün boşluqlardan çıxarmağa qadirdir. Əlbəttə, bu ideya, bu məfkurə təkcə Güney Azərbaycan üçün düşünülməyib, bütövlükdə bəşəri bir Dəyərdir. Ancaq bəşərilikdən öncə biz öz milli kimliyimizi tanımalıyıq və bütövlüyümüzə nail olmalıyıq. Asif Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" adında kitabı var. Orda belə bir fikir səsləndirilib: "Azərbaycan Bir'dir, əgər o ikidirsə, deməli, yoxdur əslində". Bu fikir özü bəşəri fikirdir. Niyə ki, biz bir millət kimi bəşərin bir hissəsiyik.

Biz Güney Azərbaycanda çox çabalar göstərmişik, öz kimliyimiz uğrunda örgütlənmişik, nəyəsə nail olmağa çalışmışıq. Ancaq sonuc əldə eləmək çox çətindir. Elə bil mənfur rejim inadımızı qırmışdı. Şəxsən mən o fikrə gəlmişdim ki, daha bəsdir, bura qədər bizimki bəs edər. İndi get başını sal aşağı, öz həyatını yaşa. Get həkimliyini elə, qəpik-quruşunu qazan, ailəni dolandır. Özüm də Bakıda məhz belə bir sakitlik arzusundaydım. Ancaq bizim dincliyimizi Soylu Atalı "pozdu", sakitliyimizə "əngəl" oldu. Şəhərdə təsadüfən rastlaşdıq (əvvəldən ünsiyyətimiz olmuşdu), ayaqüstü söhbət elədik. Necə deyərlər, "dəlinin quyusuna bir daş atdı". O "daş" yeni dalğalar əmələ gətirdi. Mən hesab edirəm ki, o görüş mənim həyatımda yeni dönüş mərhələsinin əsasını qoydu. Həqiqətən bu belədir. Niyə?! – Biz düşünürdük ki, Azərbaycanın taleyi elə bura qədərdir. Onun özündən asılı deyil. Onun taleyi başqaları tərəfindən bir ssenari kimi yazılıb artıq. Biz ortaya böyük düşüncə qoya bilmərik. Sadəcə bizlər gəlib o ssenarini icra edənlər oluruq. Çünki bizim içimizdə hələ millətləşmə prosesi getmədiyinə görə dayağı olmayan çabalar inandırıcı görünmürdü. Biz inanmırdıq ki, millətləşmə prosesini başlaya bilən Böyük Düşüncə sistemi ortaya qoymaq mümkündür. Dediyim kimi, mənim Asif Atanın düşüncələri ilə müəyyən mənada tanışlığım vardı. Ancaq bir o qədər də dərindən düşünməmiş, dərk eləməmişdim. Soylu bəylə o görüşümüzdən sonra mənim içimdə Dəyişiklik başladı. Ondan sonra intensiv görüşlərimiz oldu, Ocağın çoxsaylı tədbirlərinə qatıldım. İndi də biz bir yerdəyik, birgə addım atırıq. Təkrar vurğulamaq istəyirəm ki, o görüş mənim üçün tarixi bir məqam idi. Sonralar mən Ocaqla birlikdə bölgələrə getdim, tədbirlərə qatıldım, insanlara sözümü dedim, sevgimi bildirdim.

Bu gün mən əminliklə bildirirəm ki, biz Asif Atanın Dünyabaxışına, onun məfkurəsinə dayanıb daxili-ideoloji boşluqlardan çıxa bilərik. Vətənimizi bütövləşdirə, dünyaya öz sözümüzü deyə bilərik. Biz xilaskarımızı tanıyıb, qiymətləndirib Yola çıxmalıyıq.

**İnamımız var olsun!**
**Asif Atamız var olsun!**